**Vətəndaşların müraciətlərinə baxılması və onların qəbulunun təşkili**

2025-ci ilin **yanvar-dekabr** aylarında Binəqədi Rayon İcra Hakimiyyətinin Sakinlərin Müraciət Xidmətində (1646) cavablandırılan zənglərin sayı **15212** (2024-cü ilin analoji dövrü ilə müqayisədə 2021 vahid və ya 11,7 % az), birbaşa cavablandırılan zənglərin sayı **12387** (2024-cü ilin analoji dövrü ilə müqayisədə 1821 vahid və ya 12,8 % az), tərtib edilmiş şikayət vərəqələrinin sayı **2825** (2024-cü ilin analoji dövrü ilə müqayisədə 200 vahid və ya 6,6 % az), əks əlaqələrin sayı **1822** vahid, günlük orta zənglərin sayı **41** vahid, təşəkkürlərin sayı isə **187** vahid təşkil etmişdir.

Şikayət xarakterli 2825 vahid müraciətin 2792-si və ya 98,8 %-i həll edilmiş, o cümlədən 2494-ü və ya 89,4 %-i tam həll olunub, 96-sı və ya 3,4 %-i qismən həll edilib, 202-si və ya 7,2 % müraciətə müvafiq izahat verilmişdir. 33 vahid (1,2%) müraciətin isə icrası nəzarətdədir.

**Yanvar-dekabr** ayları üzrə daxil olmuş şikayətlərin sahələr üzrə bölgüsünə gəldikdə isə müraciətlərin 140-ı və ya 5 %-i qaz təchizatı (2024-cü ilin analoji dövrü ilə müqayisədə 27 vahid və ya 16,2 % az);

✓ 1380-i və ya 48,8 %-i su-kanalizasiya (2024-cü ilin analoji dövrü ilə müqayisədə 23 vahid və ya 1,7 % çox);

✓ 461-i və ya 16,3 %-i lift problemləri (2024-cü ilin analoji dövrü ilə müqayisədə 18 vahid və ya 4,1 % çox );

✓ 135-i və ya 4,8 %-i istilik təchizatı (2024-cü ilin analoji dövrü ilə müqayisədə 46 vahid və ya 25,4 % az);

✓ 133-ü və ya 4,7 %-i sakinləri narahat edən digər məsələlər (2024-cü ilin analoji dövrü ilə müqayisədə 24 vahid və ya 15,3 % az);

✓ 211-i və ya 7,4 %-i elektrik təchizatı ilə bağlı (2024-cü ilin analoji dövrü ilə müqayisədə 3 vahid və ya 1,4 % çox);

✓ 98-i və ya 3,5 %-i məişət tullantıları ilə əlaqədar (2024-cü ilin analoji dövrü ilə müqayisədə 185 vahid və ya 65,4 % az);

✓ 26-sı və ya 0,9 %-i çoxmənzilli binaların girişlərinin və zirzəmilərinin dizenfeksiya edilməsi ilə əlaqədar (2024-cü ilin analoji dövrü ilə müqayisədə 12 vahid və ya 31,6 % az);

✓ 154-ü və ya 5,5 %-i küçələrin işıqlandırılması idarəsi (2024-cü ilin analoji dövrü ilə müqayisədə 4 vahid və ya 2,7 % çox);

✓ 87-si və ya 3,1 %-i yaşıllaşdırma idarəsi (2024-cü ilin analoji dövrü ilə müqayisədə 46 vahid və ya 52.9 % çox) ilə əlaqədar olub.


2013-2025-Cİ İLLƏR ÜZRƏ İCRA VƏZİYYƏTİ
Tam həll olunub
Qismən həll olunub
Müvafiq izahat verilib
11%
7%
82%


2025-ci ildə daxil olan müraciətlərin kateqoriyalar üzrə bölgüsü
0%
11%
13%
38%
2%
17%
8%
11%
lift
istilik təchizatı
məişət tullantıları
elektrik enerjisi təchizatı
dezinfeksiya
işıqlandırma
yaşıllaşdırma
digər